**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** https://dergipark.org.tr/tr/pub/atdd

**Autumn 2022 / 9-3** https://doi.org/10.46868/atdd.221

# Mustafa Əfəndi Əl-Malaxinin Həyatı, Yaradıcılığı və Bədii Irsi

**Ələddin Sultanov***

**ORCID: 0000-0002-2267-7640**

**Xülasə**

Məlumdur ki, XIX əsrdə Azərbaycanın şimal-qərb bölgəsində insanların ictimai həyatında İslam dinininböyük rol oynamış, xüsusilə də Nəqşibəndiyyə təriqətinə mənsub din xadimləri və elm adamları bu bölgədə elm və tədris fəaliyyəti ilə məşğul olmuşlar. Beləşəxsiyyətlərdən biri də Qax rayonunun Aşağı Malax kəndində yaşamış Mustafa Əfəndi əl-Malaxidir. Onun qəbirüstü abidəsindəki məlumatlar da kimliyinə və həyatına qismən işıq tutur. Belə ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış olan əl-Malaxi Nəqşibəndiyyə təriqətinin müridi kimi öz əhatə dairəsində təlim və irşad fəaliyyəti ilə məşğul olmuşdur. Bölgədəki bir çox mədrəsələrdə təhsil alan əl-Malaxi yaşadığı ərazidə təlim-tərbiyə prosesində, eləcə də ictimai işlərdə mühüm rol oynamışdır. Eyni zamanda əlyazma kitabların köçürülməsində də səyləri olan əl-Malaxinin kitabxanasının bir hissəsi günümüzə qədər gəlib çıxmışdır. Həmin kitablar ilahiyyat, ədəbiyyat, fəlsəfə və s. elmlərə aiddir və əksəriyyəti ərəb dilindədir. Eyni zamanda məlum olur ki, əl-Malaxixəttatlıq/ katiblik fəaliyyəti ilə də məşğul olmuşdur. Digər tərəfdən bu məqalə XIX əsrin sonlarında şimal-qərb bölgəsi ilə hazırki Türkiyə respublikası arasında mövcud olmuş elmi və ictimai əlaqələrin hansı səviyyədə olduğuna da işıq tutur.

**Açar Sözlər:** Azərbaycan, Əl-Malaxi, Ziyarətgah, Qax, Əlyazma, Xəttatlıq

**Gönderme Tarihi: 07/01/2022** **Kabul Tarihi:20/06/2022**

---

* *Fəlsəfə üzrəfəlsə fədoktoru, Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzi, elmi işçi, Bakı-Azərbaycan, aladdin_sultanov@yahoo.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***

SULTANOV, Ə., "Mustafa Əfəndi Əl-Malaxinin Həyatı, Yaradıcılığı və Bədii Irsi", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.626-647.

# Life, Creativity and Artistic Heritage of Mustafa Efendi Al-Malakhi

**Aladdin Sultanov***
**ORCID: 0000-0002-2267-7640**

**Abstract**

It is known that in the 19th century, Islam played a great role in the public life of the people in the north-western region of Azerbaijan, especially religious figures and scientists belonging to the Naqshbandi sect were engaged in scientific and educational activities in this region. One of such personalities is Mustafa Efendi al-Malakhi, who lived in Ashagi Malakh village of Gakh region. The information on his tombstone also enlighten on his identity and life. Thus, al-Malakhi, who lived in the late 19th and early 20th centuries, was engaged in teaching and mentoring activities as a disciple of the Naqshbandi sect. Al-Malakhi got education in many religious schools (madrasahs) in the region and played an important role in the educational process in his site where he settled, as well as in public affairs. At the same time, part of al-Malakhi's library, which also made efforts to copy manuscripts, has survived to the present day. These books belong to sciences such as theology, literature and philosophy etc. and most of them are in Arabic. At the same time, it turns out that al-Malakhi was also engaged in calligraphy/secretarial activities. On the other hand, this article sheds light on the level of scientific and social relations that existed between the north-western region and the present-day Republic of Turkey in the late 19th century.

**Keywords:** Azerbaijan, al-Malakhi, Visiting place, Qakh, manuscript, Calligraphy

**Received Date: 07/01/2022** **Accepted Date: 20/06/2022**

---

* *PhD in Philosophy, Azerbaijan National Academy of Sciences Sheki Regional Scientific Center, researcher, Baku-Azerbaijan, aladdin_sultanov@yahoo.com*

***You can refer to this article as follows:***
SULTANOV, Ə., "Mustafa Əfəndi Əl-Malaxinin Həyatı, Yaradıcılığı və Bədii Irsi", *Academic Journal of History and Idea,* Vol. 9, Issue 3, 2022, p.626-647.

# Жизнь, творчество и художественное наследие Мустафы Эфенди Аль-Малахи

**Аладдин СУЛТАНОВ***
**ORCID: 0000-0002-2267-7640**

**Резюме**

Известно, что в XIX веке ислам играл большую роль в общественной жизни людей в северо-западном регионе Азербайджана, особенно религиозные деятели и ученые, принадлежащие к секте Накшбандие, вели научную и просветительскую деятельность в этом регионе. Одним из таких личностей был МустафаЭфенди Аль-Малахи, живший в селе Ашаги Малах Гахского района. Сведения на его надгробии частично проливают свет на его личность и жизнь. ТИтак, аль-Малахи, живший в конце XIX – начале XX веков, как ученик секты Накшбандие в своем окружении занимался обучением и руководством. Получивший образование во многих мэдресах региона, аль-Малахи сыграл важную роль в образовательном, а также в социальных работах, где он проживал. Наряду с этим до наших дней дошла часть библиотеки ал-Малахина, который приложил немало усилий в копировании рукописных книг. Эти книги относятся к теологии, литературе, философии а также к другим наукам и большинство из них на арабском языке.. В то же время выявляется, что аль-Малахи также занимался каллиграфией/секретарской деятельностью. С другой стороны, эта статья проливает свет на уровень научных и социальных отношений, существовавших между северо-западным регионом и современной Турецкой Республикой в конце XIX века.

**Ключевыеслова**: Азербайджан, Аль-Малахи, Святилище, Гах, Рукопись, Каллиграфия

**Получено: 07/01/2022** **Принято: 20/06/2022**

---

*****Кандидат философских наук, Шекинский региональный научный центр Национальной академии наук Азербайджана, научный сотрудник, Баку-Азербайджан, aladdin_sultanov@yahoo.com*

***Ссылка на статью:***
SULTANOV, Ə., "Mustafa Əfəndi Əl-Malaxinin Həyatı, Yaradıcılığı və Bədii Irsi", *академическая история и мысль*, T.9, NO.3, 2022, C.626-647.

## Giriş

XIX əsrdə Azərbaycanın şimal-qərb bölgəsində həm dini, həm dünyəvi elmlər geniş şəkildə tədris edilmişdir. Mədrəsələr və məscidlər tədris mərkəzlərinə çevrilmiş və buralarda İslam elmləri ilə yanaşı dünyəvi elmlər də öyrədilirdi. Uşaqlar məscidlərin yanında yerləşən mədrəsələrdə təhsil alırdılar. Belə ki, həmin mədrəsələrdə həm Quran, təfsir, hədis, fiqh, əqaid kimi dini fənlər, həm də tibb, riyaziyyat və fəlsəfə kimi dünyəvi fənlər tədris olunurdu.[1] Bu bölgədə – Şəki, Qax, Zaqatala, Oğuz, Balakən, Qəbələ, Şamaxı və digərlərində sufiliyin əsas cərəyanlarından və dərviş təşkilatlarından biri olan "Nəqşibəndiyyə" təriqətinin şeyxləri – mürşidləri, ruhani alimləri, övliyaları fəaliyyət göstərmişlər. Azərbaycanda bu cəmiyyətin əsas mərkəzi Şəki və Qaxda yerləşmişdir.[2] Nəqşibəndiyyə təriqətinin Xalidi-Mahmudi qoluna mənsub sufilər XIX əsrdə Azərbaycanın şimal-qərb bölgəsində yaşayan insanların dini və ictimai həyatına böyük təsir göstərmişlər.[3] Qeyd edək ki, ilk dəfə Azərbaycanın şimal-qərb bölgəsində İsmayil Siracəddin Şirvani əl-Kürdəmirinin (ö.1848) vasitəsilə Yəhya Qutqaşini və Lələli Yunus Əfəndi NəqşibəndiliyinXalidilikqolunu yaymışlar. Bu təriqətə mənsub olan Almalılı Mahmud Əfəndinin bu bölgədəki müridləri də mədrəsə təhsilini bitirib icazət almışlar.[14] Həmin təriqətin müridlərindən biri də Qax rayonunun Aşağı Malax kəndində ictimai xadim və din alimi kimi fəaliyyət göstərmiş Mustafa Əfəndi əl-Malaxidir.

### 1-Həyatı

Ehtimal olunur ki, Mustafa Əfəndi əl-Malaxi Qax rayonunun Aşağı Malax kəndində dünyaya gəlmişdir. Lakin onun doğum yeri və tarixi haqqında əlyazma kitablarda və ya tarixi abidə kitabələrində hər hansı bir məlumat mövcud deyil. Kiçik yaşlarındanTala, Qaçqaçayvə başqa kəndlərdəki bir neçə mədrəsədə təhsil alan əl-Malaxi daha sonra öz

---

[1] İbrahim Erol, "*Azerbaycanda Nakşibendiliğin Halidi-Mahmudi Kolu",* fəlsəfə doktorluğu dissertasiyası, Recep Rize 2019, s.259.
[2] Elmira Mirzəyeva, *Orta əsr Azərbaycan şəhərlərinin mənəvi həyatına dair*, Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, S.20, Bakı 2013, s.308.
[3] İ. Erol, *a.g.t.,* s.259.
[4] İ. Erol, *a.g.t.,* s.264.

kəndində təlim və təhsil işləri ilə məşğul olmuşdur. Aşağı Malax kəndində onun özünə məxsus hücrəsi və mədrəsəsi mövcud idi. Eləcə də o, kənddəyerləşənməsciddə fəaliyyət göstərmişdir. 1919-cu ildə həmin kənddə vəfat edən əl-Malaxi kəndin qəbiristanlığında dəfn edilmişdir.

Müqəddəs pir kimi qəbul olunan əl-Malaxinin xalq tərəfindən ziyarətgaha çevrilən qəbri çaylaq daşlarından hörülmüş hasarla əhatəyə alınmışdır. Bu qəbirüstü abidənin ətrafında hörülmüş divarda diqqət çəkən xüsuslardan biri o oldu ki, hasarın ortasında qəbrin yanına daxil olmaq üçün kiçik bir qapı vardır. Lakin Qapı çox aşağıdan qoyulmuşdur ki, içəriyə daxil olmaq istəyən mütləq oradan əyilərək keçməlidir. Bununla əl-Malaxinin qəbrini ziyarət etmək üçün gələn hər kəsin təzim və hörmətlə ona yaxınlaşması gərəkdiyinə işarə edilir.[5] Digər tərəfdən qəbri əhatə edən divarın çöl nahiyəsində böyük bir Yemişan ağacı vardır ki, insanlar öz diləklərinin gerçəkləşməsi üçün həmin ağaca parça və parça qırıqları asmışlar.[6] Qeyd etməliyik ki, İslam dinində bu, batil bir inanc olaraq qəbul edilsə də, həmin bölgədə qədim ağac kultu inancının izlərinin hələ də qaldığını göstərir.

Qəbrin baş tərəfində kərpic hörgüyə qoyulmuş çaylaq daşından düzəldilmiş lövhədə (1,49 x 0,55 m.) aydın nəsx xətti ilə ərəb dilindəyazılmışqəbirüstü kitabəsi və tərcüməsini təqdim edirik:[7]

يا رحمن يا رحيم. كل من عليها فان الا وجه ربك ذو الجلال والاكرام. هذا قبر الشيخ الشهير مرشد الفاضل سيد السالكين الحاج بالحرمين الشريفين والزائرين السيد الثقلين الحاج مصطفى افندى الاحمدى المحمودى الخضرى نقشبندى بن حاج اسكندر. انتقل المرحوم الى دار الجنة فى شهر جمادى الاولى سنة 1337.

*Tərcüməsi:*

*Ey Rəhman, ey Rəhim! Uca və kərəm sahibi olan Rəbbinin zatından başqa hər şey fanidir. Bu məşhur şeyx, fəzilətli mürşid, saliklərin əfəndisi, Məkkə və Mədinəni ziyarət etmiş, seyyidüssəqəleyn (İnsanların və cinlərin ağası), hacı Mustafa Əfəndi əl-Əhmədi əl-Mahmudi əl-XədəriNəqşibəndi ibn Hacı İskəndərin qəbridir. Rəhmətlik H. 1337 (1919)-cu il Cəmadiyələvvəl ayında cənnət evinə köçdü.*

[5] Şəkil-1.
[6] Şəkil-2.
[7] Şəkil-3.

Məzar daşının kitabənin haşiyəsindəisənəbati ornamentlərin içində aşağıdakı misralar həkk olunmuşdur:[8]

*"Can verir raihei-türbəti pakın ey pak.*

*NəvvarAllahuləkəl-ərzə səqallahusərakə*

*(Allah sənin üçün yer üzünü nurlandırsın. Allah sənin torpağını islatsın).*

*Cövhəri-zatındadır məcmui-ovsafı-kamal".*

*Bu sifətilə ki, sənsən, qanda var bir paki-zat.*

*Təriqi nəqşibəndidə "Nəhnuəqrəbu/Biz daha yaxınıq"[9] dersin,*

*Edib təhsili-dövrün, qıldı bunda ömrünü əfna".*

Kitabələrdən məlum olur ki, o, yaşadığı bölgədə dövrünün görkəmli ictimai-siyasi xadimlərindən biri olmuşdur. əl-Malaxinin qəbrini əhatə edən divarın üstünə qoyulmuş və əl-Malaxiyə ithaf edilmiş çaylaq daşından (0,01 x 0,76 m.) düzəldilmiş digər xatirə lövhəsindəki ərəbcə yazılmış kitabədə isə belə yazılmışdır:[10]

> "*Bu qəbir həqiqi alim, kamil mürşüdMövləana Şeyx Hacı Mustafa Əfəndi ibn İskəndər əl-Malaxiyə məxsusdur. Onun qüdrətli məzarı müqəddəs olsun! 1337 (m. 1919)-ci ildə fani dünyadan əbədi dünyaya köçdü*".

İkinci kitabədə birincidən fərqli olaraq əl-Malaxi "həqiqi alim", "mövlana" ləqəbləri ilə qeyd edilmişdir ki, bu da bir daha onun görkəmli bir alim və ictimai xadim olduğunu göstərir. Bu epiqrafik abidələrdə əl-Malaxinin doğum tarixi qeyd olunmamışdır. Onun fəaliyyət dövrünü təxmini olaraq yaşadığı evdə mühafizə edilən məscid kitabəsindən aydınlaşdırmaq mümkündür. Belə ki, həmin məscid kitabəsində məscidin H. 1277 (M. 1860/61)-ci ildə molla Xəlilin oğlu molla Mübin tərəfindən inşa olunduğu bildirilir. Belə çıxır ki, həmin illərdə əl-Malaxi təlim-tədrisfəaliyyəti ilə məşğul olmuşdur. Qeyd edilən yerdə əl-Malaxinin hücrəsinin və məscidinin yerləşdiyi ehtimal olunur. Burada o, müridləri ilə təlim-tərbiyə işini icra edirdi. əl-Malaxiyə ətf olunan ruhani aləmlərə məxsus yüksək

---

[8] Şəkil-3.
[9] Quran, Qaf surəsi, 50/16.
[10]Şəkil-4.

dərəcəli ləqəbləri onun bütün ömrünü Nəqşibəndiyyə nəzəriyyəsinin tədqiqinə, təliminə və təbliğinə həsr etdiyini göstərir.

Eyni zamanda buradan belə bir nəticə çıxarmaq olar ki, onun qəbri bir müddət sonra xalq tərəfindən təmir edilmiş və bu zaman əvvəlki qəbirüstü kitabəsi yerindən sökülərək yenisi ilə əvəz olunmuşdur. Əvvəlki kitabə də qəbrin yanına qoyularaq mühafizə edilmişdir. Tədqiqat nəticəsində aydın oldu ki, "Hacı" təxəllüsünə sahib olan əl-Malaxi həqiqətən də, 1893-cü ildə Məkkə şəhərindəki Kəbəni ziyarət etmək məqsədilə həcc səyahətinə çıxmışdır. O, şəxsi kitabxanasında olan, Mustafa ibn Şəmsəddin əl-Qarahisarinin "Əxtəri-kəbir" əsərinin yer aldığı daş basma kitabın əlavə boş bir səhifəsində öz əl yazısı ilə ərəb dilində yazdığı həcc səfəri əsnasında başına gələn hadisələr haqqında aşağıdakı qeydləri yazmışdır:

> *"Mustafa İskəndər oğlu Allahın müəqəddəs evini (Kəbəni) ziyarət etməyi arzuladı və buna niyyətləndi. Sonra 1311-ci il Cəmadiyələvvəl ayının (1893-cü ilin Noyabr ayı) başında dostu Hacı Bayram Abdullah oğlu ilə birlikdə həftənin cümə axşamı günü evindən çıxdı və Nuxada (Şəki) iki gecə istirahət etdilər. Sonra oradan çıxdılar və Qaraoğlana (Yevlax rayonunun tabeliyində eyni adlı bir kənd var) getdilər. Ancaq gecə orada qalmadılar. Sürətli gedən minik vasitəsinə mindik və Batuma çatdıq. Orada on dörd gecə qaldıq. Sonra oradan çıxdıq və Firqatə adlanan kiçik gəmiyə mindik və Limana kəndinə çatdıq. Orada bir gecə qaldıq. Oradan yola çıxdıq və hərbi düşərgəyə çatdıq. Orada bir gecə həbsdə qaldıq. Sonra iki əsgərlə birlikdə oradan çıxdıq və onlar bizi Hopaya gətirib Əmir ....-ə təslim etdilər. O bizi hakim qarşısına çıxartdı. Lakim o bir müddət olsun belə bizi həbs etmədi. Nəhayət, Müəllim Mustafa Əfəndinin mədrəsəsinə gəlib çatdıq və onu ziyarət etdik. O bizi çox gözəl şəkildə qarşıladı. Bir tələbəsi ilə də salamlaşdıq. Bizə gözəl ziyafət verdi və xeyli söhbət etdik. Sonra cümə günü həmin Mustafa Xoca bizi özü ilə birlikdə əl-Cami məscidinə apardı. Biz istəmədiyimiz halda camaata bizdən bəhs etdi və bizim üçün onlardan təqribən altı manat qədər dirhəmlər (pul) topladı. Əsgərlərin əmirindən də bizim üçün pulsuz bir minik tələb etdi. O əmir də bunu yerinə yetirdi. Üç gecə orada qaldıq. Sonra kiçik gəmiyə mindik və Rizə bəldəsinə çatdıq və bəzi məsələlərimizi həmin bəldəninmüftüsünə ərz etdik. O da bizə həmin bəldənin idarəçisinin qəbuluna*

*getməyin yollarıdını öyrətdi. Biz ona öz istəklərimizdən bəhs etdik, o da buna müsbət cavab verdi. Orada on dörd gecə qaldıq. Sonra oradan çıxdıq və Osmanlı dövlətinin sultanı Əbdülhəmid xanın -Allah onun hakimiyyətini daim etsin, onu bəlalardan və afətlərdən qorusun, Allah onu əsgərləri ilə birlikdə düşmənlərə qarşı müzəffər etsin- sədəqəsi olaraq pulsuz şəkildə böyük bir gəmiyə mindik. Orada on yeddi gecə qaldıq. Bu müddət ərzində İstanbula çatdıq. Lakin əmirlər bizim İstanbulda gəmidən çıxmağımıza icazə vermədilər və bizi Mudanyaya göndərdilər. Oradan da başqa bir bəldəyə gedib orada iki gecə qaldıq. Sonra bizi Bursaya göndərdilər. Orada Hacı Bayram əl-Buminin oğlu Məhəmməd Şərif Xocanın qonağı olduq. O bizə çox gözəl və qəribə yeməklər ikram etdi. Həmçinin əmirlərdən heç bir xərcsiz arayış almağımıza yardım etdi. Həmin arayışlarla insanlar ətrafda gəzib dolaşa bilirlər. İş bitdikdən, yəni arayışları aldıqdan sonra geri qayıtdıq və Rəcəb ayının beşi İstanbula çatdıq. Orada Hafiz Məhəmməd əl-Kişinin (mədrəsədəki) otağında bir gecə qaldıq. Sonra həmin mədrəsədən Öncü Hafiz adlanan mədrəsəyə keçdik və Molla Əhməd ən-Nuxəvi əl-Qışlaqi bizi bir gecə qonaq etdi. Sonra (yəqin ki, mədrəsədəki) bir otaqda yerləşdik. Sonra məsələmizi yazaraq kinayəli şəkildə Sədrəzəmə (Osmanlı dövlətində baş nazir) ərz etdik. İki dəfə bizə cavab verdi. Bir dəfəsində qəbul etmədik, ikinci dəfəsində isə qəbul etdik və Şəvval ayının iyirmi beşində Allahın müqəddəs evini (Kəbəni) ziyarət etmək üçün gəmiyə mindik".*[11]

əl-Malaxinin bu qeydlərindən məlum olur ki, həmin illərdə indiki Türkiyə Cumhuriyyətinin Bursa şəhərində Hacı Bayram əl-Bumi təxəllüslü müəllim fəaliyyət göstərmişdir ki, o, məhz Qəbələ rayonunun Bum kəndindən idi. Eləcə də İstanbul şəhərindəki mədrəsələrin birində Hafiz Məhəmməd əl-Kişi adlı müəllimin Şəki rayonu Kiş kəndində olduğu məlum olur. İstanbuldakı digər bir müəllim olan Molla Əhməd ən-Nuxəvi əl-Qışlaqinin isə Şəki şəhərinin Qışlaq məhəlləsindən olduğu görülür. Bu da onu göstərir ki, XIX əsrin sonlarında Azərbaycanın şimal-qərb bölgəsindən təhsil almaq məqsədilə bir çox tələbə Osmanlı dövlətinə getmiş və bir qismi orada qalaraq tədris fəaliyyəti ilə məşğul olmuşdur.Bu məlumatlardan aydın olur ki, XIX əsrin sonlarında Azərbaycanın şimal-qərb

[11] Şəkil-5.

bölgəsindən həccə getmək istəyənlər Şəki-Batumi-İstanbul-Məkkə güzərgahından istifadə etmiş, Batumi şəhərinə qədər piyada vəya yerüstü minik vasitələrilə, Batumidən etibarən gəmi vasitəsilə səfər etmişlər. Burada qeyd olunan "*sürətli gedən minik vasitəsi*" ifadəsi ilə qatarın nəzərdə tutulduğu ehtimal oluna bilər. Çünki 1883-cü ildə Bakı-Tbilisi-Poti dəmiryolunun tikintisi başa çatmış və həmin ildən etibarən bu bölgələr arasında qatar səfərləri başlamışdı.[12] Digər tərəfdən Malax məscidinin ərəb dilində yazılmış kitabəsində qeyd olunur ki, halhazırda Malax adlanan kənd vaxtilə Ömərabadadlanırmış və onun əsasını məhz Mustafa Əfəndi əl-Malaxinin atası qoymuşdur. [13] Çünki Aşağı Malax kəndinin məscid kitabəsində əl-Malaxinin atası haqqında "الحاج عمر البانى هذه القرية / *Bu kəndin qurucusu Hacı Ömər"* Ola bilsin ki, onun atasının iki adı olmuş, bəzi kitabələrdə "İskəndər", bəzilərində isə "Ömər" olaraq qeyd olunmuşdur. Bunu sübut edən digər bir amil də odur ki, günümüzə qədər gəlib çıxmış əl-Malaxinin kitabxanasındakı bəzi kitablarda ona məxsus möhür var və həmin möhürdə "Mustafa Öməriyyə" yazılmışdır.[14]

## 2-Təhsil və tədris fəaliyyəti

əl-Malaxi mədəni-maarif işlərinin inkişafında və Qax rayonu ərazisindəki sosial problemlərin həllində mühüm işlər görmüşdür. əl-Malaxinin rəhbərliyində kənd camaatının iməciliklə tikdiyi məscid isə H. 1323 (M.1905/06)-cı ildə tamamlanmışdır. Lakin repressiya illərində məsciddə mövcud olan kitabxana dağıdılmış və sadəcə olaraq xarabalıq qalmışdır. Günümüzə gəlib çıxan və həmin məscid haqqında müəyyən məlumatlar verən iki daş kitabədən birində ərəb dilində belə yazılmışdır:[15]

قد بنى هذا المسجد الشريف ملا موبن (بن) ملا خليل القاخى معمار عمرو يعقوب و قربان.
واهبون ثابه لابهم. تقبل الله منهم بقبول وجعل مابهم بالفردوس. سنة 1277[1].

**Tərcüməsi:***Bu şərəfli məscidi Molla Xəlil əl-Qaxinin oğlu Molla Mübin, Memar Ömər, Yaqub və Qurban tikmişdir. Savabını atalarını göndərirlər. Allah onlardan bunu qəbul eləsin, onların dönüş yeri Firdövs cənnəti olsun. H. 1277 (M. 1860/61)-ci il.*

---

[12] Yaqub Mahmudov, *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası*, C.1., Lider, Bakı 2004, I/212.
[13] Məşədixanım Nemət, *Azərbaycanda pirlər*, Elm və təhsil, Bakı 2010, s.146.
[14] Şəkil-6.
[15] Şəkil-7.

Qeyd etmək lazımdır ki, bu məlumatların yer aldığı daş kitabənin hal hazırda harada olduğunu müəyyənləşdirmək mümkün olmadı. Məscidin təmirindən sonra yazılan digər məscid kitabəsində isə ərəb dilində belə məlumat verilir[16]:

قد جدد جماعة عمر آباد هذا الجامع الشريف. وزادو من الباطن ثلثة سباعة نحو المغرب ومن الظاهر نحو المشرق ورفعوا سمكه. پير سيد شيخنا الحاج مصطفى افندى ابن الحاج عمر البانى هذه القرية. سنة 1323 .

**Tərcüməsi:***Bucameyi-şərifiÖmərabad kəndinin camaatı yeniləmişdir. İç tərəfindən üç barmaq ölçüsündə qərb istiqamətində, çöl tərəfdən şərq istiqamətində artırma etdilər və tavanını yüksəltdilər. Bu kəndin qurucusu Hacı Ömərin oğlu şeyximiz Pir Seyyid Mustafa Əfəndi. H. 1323 (m. 1905)-ci il.*[17]

Talalı Əhməd Əfəndinin bir çox tələbə və müridi olduğu və bunlardan iyirmi birinin, yaxud iyirmi üçünün ondan icazət aldığı qeyd olunur. Bu bölgədə geniş vüsət almıştəsəvvüfcərəyanlarından biri olanNəqşibəndi təriqətinin Xalidi-Mahmudi qoluna mənsub şəxslərin adlarının qeyd olunduğu silsilənamədə Talalı Əhməd Əfəndinin iyirmi üç icazətli müridinin olduğu görülür.[18] Həmin müridlərdən onuncusu məhz "Hacı Mustafa Əfəndi əl-Malaxi" olaraq göstərilir.[19] Həmin SilsilənaməŞüeyb Əfəndi tərəfindən 1905-ci ildə tərtib edilmişdir.[20] Aydın olur ki, Mustafa Əfəndi əl-Malaxi üçüncü dərəcəli (əl-saiq) şeyx rütbəsi almazdan əvvəl bir neçə il Talalı Şeyx Əhməd Əfəndinin müridi olmuşdur. Onun nəzarəti altında seyri-sülukunu[21] tamamladıqdan sonra irşad fəaliyyəti göstərmək üçün indiki Aşağı Malax bölgəsinə təyin olunmuşdur.[22] Eyni zamanda o, ərəb dilini də çox mükəmməl şəkildə öyrənmiş, kitablardakı xüsusi qeydlərini də məhz ərəb dilində yazmışdır. Beləliklə əl-Malaxi Aşağı Malax kəndindəki mədrəsəsində uzun illər tələbələrinə İslam elmlərini və ərəb dilini tədris etmiş, insanları təsəvvüf yoluna cəlb etmişdir.

---

[16] Meshadikhanum Neymat, Korpus epigraficheskikh pamyatnikov Azerbaydzhana (Tom II: Arabo–perso–tyurkoyazychnyye nadpisi Shcheki–Zakatal'skoy zony), KHKHI–YNE, Baku 2001, s.124.
[17] Şəkil-8.
[18] İ. Erol, *a.g.t.*, s.231.
[19] Şəkil-9.
[20] Əhməd Niyazov, *XIX Əsr Azərbaycanın Şimal-Qərbində (Qanıx-Həftəran Vadisi) Dini Həyat, Elm və Mədrəsələr*, Nurlar, Bakı 2016, s.87.
[21] Təsəvvüfdə müridin mənəvi dərəcələri tamamlayana qədər keçdiyi mərhələlərə verilən addır
[22] Paşa Yaqub, *Ziyarət yollarında I hissə*, Zərdabi, Bakı 2011, s.25.

Əlyazma kitablarından məlum olduğuna görə, əl-Malaxi bəzi əlyazmalarını həmin bölgədə yaşayıb fəaliyyət göstərən müəllimlərin yanında köçürmüşdür. Ehtimal edirik ki, onlar da əl-Malaxinin müəllimləri olmuşlar ki, adlarını aşağdakı kimi sadalaya bilərik: Məhəmməd Əfəndi əl-Avari, Məhəmməd Əfəndi əl-Heydəli əl-Qaçqaçayi, Qurban Əfəndi ət-Talalı, Abdullah Əfəndi.

Mustafa Əfəndi əl-Malaxinin çox zəngin kitabxanası olmuşdur ki, sovet hakimiyyəti dövründə onların əksəriyyəti yandırılmış, yaxud torpağa basdırılmışdır. Buna rəğmən bir qisim kitabları nəvələri tərəfindən yaşadığı evdə mühafizə edilir (Yaqub 2011, 28-29).Mühafizə edilən həmin kitabların içində 31 əlyazma, 30 daş basma və 18 mətbəə nəşri olan kitab yer alır. Kitabların 28 ədədi ilahiyyat, 9 ədədi fəlsəfə, 24 ədədi ərəb dili qrammatikası, 7 ədədi ədəbiyyat, 4 ədədi tarix, 1 ədədi tibb, 2 ədədi coğrafiya, 1 ədədi zoologiya və 1 ədədi də astronomiya elminə dairdir.

**2-Katiblik (xəttatlıq) fəaliyyəti**

Müsəlman şərqində xəttatlıq tarixi hərflərin dekorativ şəkildə təsvir olunması ilə başlamış, əsrlər boyu müxtəlif mərhələlərdən keçmiş və X-XII əsrlərdə sənət kimi formalaşmışdır. Əlyazma kitabının yaranmasında böyük rolu olan xəttat və katiblər ərəb qrafikası əsasında yaranmış kufi və xətti-sittəyə (altı xətt növü: süls, nəsx, mühəqqəq, reyhani, touqi, rüqə) daxil olan xətt növlərinin əksərində yazmağı bacarmışlar. Onlar gözəl, kalliqrafik xətlə əlyazmalar köçürmüş, eyni zamanda övladlarına, şagirdlərinə də öyrətməklə xəttatlıq və katiblik sənəti ənənəsini davam etdirib yaşadırdılar.[23]

XVIII-XIX əsrlər Azərbaycanın şimal-qərb bölgəsində yazı mədəniyyətinin zirvə dövrü hesab olunur. Bu bölgədə daha çox “nəsx” xətt növünə üstünlük verilmişdir. Nəsx xəttinin isə ümumiyyətlə “nəstəliq”, “hicaz nəsxi”, nəsxül-fəzah”, “nəsxül-hədis”, “iraninəsx”, “Osman nəsxi” və “Bağdad nəsxi” kimi növləri vardır. Azərbaycanın şimal-qərb bölgəsində isə nəsxin yeni bir növü ortaya çıxmışdır ki, buna “Tala nəsxi” adı verilmişdir. Bu bölgədə katiblər və xəttatlar məhz “Tala nəsxi” xətt növünə üstünlük vermişlər. Bölgənin məşhur katibləri arasında Usta Murtaza Əli, Şeyx Məhəmməd İlisuvi, Ramazan ibn Mehdi ət-Talali, Əbu İshaq İsmail ət-Talali və Şaban Əfəndini saymaq olar.[24]

[23] Əli Məmmədbağıroğlu, *XVII Əsr Azərbaycan Əlyazma Kitabı*, Elm və Təhsil, Bakı 2018, s.10.
[24] Ə.Niyazov, *a.g.e.*, s. 254.

Mustafa Əfəndi əl-Malaxi də təhsilini bu bölgənin alimlərindən biri olan Talalı Əhməd Əfəndidən aldığı kimi, xəttatlığı da burada öyrənmişdir. əl-Malaxi bir çox əlyazmanın üzlərini köçürmüş və o, öz əlyazmalarını məhz "Tala nəsxi" xətti ilə yazmışdır. əl-Malaxinin günümüzə gəlib çatmış kitabları arasında onun öz dəsti-xətti ilə yazdığı 9 ədəd əlyazma kitabı mövcuddur. Bunlar ƏbülxeyrİsaməddinƏhməd Əfəndi Taşköprüzadənin "Risalatü-taşköpri", İbn Hişam ən-Nəhvinin "Qəvaidül-erab", Xalid ibn Abdullah əl-Əzhərinin "ŞərhünLətifün əla qəvaidil-erab", ƏbudHəfs Nəcməddin Ömər ibn Məhəmməd ən-Nəsəfinin "Əqaidün-Nəsəfi", ƏbuAbdullah Məhəmməd əl-Misriəş-Şafei Cəlaləddin əl-Məhəllinin "Şərhücəmil-cəvami" adlı əsərləri, müəllifi naməlum olan "Əmsileyi-müxtəlifə", "Ədəbül-bəhs", "Mühəmmədiyyə" adlı əsərləri və həm müəllifi, həm də adı naməlum bir əlyazma əsərdir.

**4-Əl-Malaxinin yazdığı əlyazmaların paleoqrafik xüsusiyyətləri:**

İlk əvvəl qeyd etməliyik ki, Azərbaycan əlyazma kitabı neçə-neçəəsrlərin arxasında ulu babalarımızınyaratmış olduğu mənəvi sərvəti özündəəksetdirməkləmədəniyyətimizi hədsizzənginləşdirərək bu günümüzə gəlib çatmışdır.Mütəxəssislər Azərbaycan əlyazma kitablarını bədii tərtibat baxımından üç yerə ayırmışlar:

**4.1. Adi kitablar:** Bu kimi əlyazma kitabları haşiyə xətlərinin olmamasına, əsas mətndən seçilən başlıqların o qədər də səliqəli olmayan xətt ilə yazılmasına görə fərqlənir. Bu kimi əlyazmalar geniş kütlənin ehtiyacını vaxtında ödəmək üçün sürətli şəkildə köçürülmüş və xüsusilə mədrəsələrdə, məscidlərdə, ailələrdə və kitab dükanlarında tələbələr, müəllimlər və mirzələr tərəfindən yaradılıb üzü köçürülmüşdür.[25]

**4.2. Orta səviyyədə tərtib olunmuş kitablar:**Orta səviyyədə olan əlyazma kitabları adi kitablardankeyfiyyətli tərtibatına görə fərqlənir. Bu fərq ondan ibarətdir ki, ilk vərəqindəgözəl ornamentlərlə frontispis çəkilir,mətnin başlıqları əsas mətnin xəttindən seçilənkalliqrafikxətləyazılır, səhifələrdə mətn bir və ya bir neçə əlvanrənglixətlərləhaşiyəyəsalınır. Əlyazma kitabına estetik gözəllik verməkdən ötrü və ağ pardaxlanmışvərəqləroxucunun gözlərini yormaması üçün solğun rənglərlə boyanır.

[25] Cahangir Qəhrəmanov, *Azərbaycan əlyazma kitabı tarixindən / "Əlyazmalar xəzinəsində VIII cild"*, Elm, Bakı 1987, VIII/9.

**4.3. Yüksək bədii tərtibatlı sənət abidələri:**Yüksək bədii tərtibatlı sənət əsərləri olan əlyazmakitablarınınhazırlanmasında yuxarıda sadalananlardan əlavə olaraqəsas şərtlərdən biri bunun üçün yüksəkkeyfiyyətli kağızlardan istifadə olunmasıdır.[26]

əl-Malaxinin yaradıb köçürdüyü kitablara gəldikdə, “Adi kitablar” kateqoriyasına daxil etmək olar. Tədqiqata cəlb etdiyimiz həmin əlyazmalar “Adi kitablar”axass xüsusiyyətləri ehtiva edir. Həmin əlyazma kitablara dair qısa kataloqu təqdim edirik:

| № | Kitabın adı | Müəllifi | Nəşr növü | Dili | Sahibi ilə bağlı qeydlər | Təsnifi | Mətbəə, yer, il / katib | Möhür | Cild növü |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Risalatü-taşköpri | ƏbülxeyrİsaməddinƏhmədƏfəndiTaşköprüzadə | Əlyazma | Ərəb dilində | | Ədəbiyyat | Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Məhəmməd Əfəndi əl-Avarinin yanında 1293-cü ildə köçürülmüşdür. | | Karton cild |
| 2 | Əmsileyi - müxtəlifə | Naməlum | Əlyazma | Ərəb dilində və osmanlı türkcəsində | | Ərəb dili qrammatikası | Əlyazmanı köçürən: Mustafa ibn İskəndər əl-Malaxi. H. 1287-cü il | | Karton cild |
| 3 | Ədəbül-bəhs | Naməlum | Əlyazma | Ərəb dilində | Bu kitab Mustafa ibn İskəndər əl-Malaxiyə məxsusdur | Ərəb dili | Bu kitab H. 1292-ci ildə Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Qurah kəndində köçürülmüşdür. | | Karton cild |

[26] Ə. Məmmədbağıroğlu, *a.g.e.*, s.38

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4 | Qəvaidül-erab | İbn Hişam ən-Nəhvi | Əlyazma | Ərəb dilində | | Ərəb dili qrammatikası | Bu kitab Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Ənbərçay kəndində Məhəmməd Əfəndinin yanında H. 1291-ci ildə köçürülmüşdür. | | Karton cild |
| 5 | Mühəmmədiyyə | Naməlum | Əlyazma | Ərəb dilində | | Fiqh | H. 1296-cı ildə Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən köçürülmüşdür. | | Karton cild |
| 6 | ŞərhünLətifün əla qəvaidil-erab | Xalid ibn Abdullah əl-Əzhəri | Əlyazma | Ərəb dilində | | Ərəb dili qrammatikası | Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Məhəmməd Əfəndi əl-Avarinin yanında Qaşqaçay kənd məscidində H. 1294-cü ildə köçürülmüşdür. | | Nəbati naxışlı medalyonlu qəhvəyi rəngli dəri cild |
| 7 | Əqaidün-Nəsəfi | ƏbudHəfs Nəcməddin Ömər ibn Məhəmməd ən-Nəsəfi | Əlyazma | Ərəb dilində | Mustafa ibn İskəndər əl-Çukək əl-Malaxiyə məxsusdur. | Əqaid | Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Abdullah Əfəndinin yanında H. 1296-cı ildə köçürülmüşdür. | | Dəri cild |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 8 | Naməlum (İçində ərəb dilində bəzi şeirlər də var) | Naməlum | Əlyazma | Ərəb dilində | | Ərəb dili qram matik ası | Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Qurban Əfəndi ət-Talalının yanında H. 1296-cı ildə köçürülmüşdür | | Nəbati naxışlı medalyo nlu qəhvəyi rəngli dəri cild |
| 9 | Şərhücə mil-cəvami | ƏbuAbdull ah Məhəmmə d əl-Misriəş-Şafei Cəlaləddin əl-Məhəlli | Əlyazma | Ərəb dilində | | Fiqh | Mustafa ibn İskəndər əl-Malaxi tərəfindən Məhəmməd Əfəndi əl-Heydəli əl-Qaçqaçayinin yanında H. 1297-ci ildə köçürülmüşdür. | "Mustafa Öməriyyə 1219" yazılı möhür var | Dəri cild |
| 10 | Hədaiqüd-dəqaiq | SəduddinS ədullah əl-Bərdəi | Əlyazma | Ərəb dilində | Bu kitab Hacı Mustafa ibn İskəndər əl-Öməriyy əyə məxsusd ur. | Ərəb dili qram matik ası | Molla Gülməhəmməd tərəfindən Hacı Abdullah Əfəndi əl-Malaxi və Mustafa ibn İskəndər əl-Malaxinin yanında H. 1295-ci ildə köçürülmüşdür. | "Mustafa Öməriyyə" yazılı möhür var | Karton cild |

Nümunə olaraq əl-Malaxi tərəfindən köçürülmüş, ƏbülxeyrİsaməddinƏhməd Əfəndi Taşköprüzadənin (ö. 1561) "Risalatü-taşköpri" (əsərin orjinal adı: Şərhün əla risalə fi ilmi adabil-bəhs vəl-münazərə) əsərinin yer aldığı əlyazma abidəsinin paleoqrafik xüsusiyyətlərini təqdim edirik:

Qeyd edək ki, ƏbülxeyrİsaməddinƏhməd Əfəndi Taşköprüzadə (ö. 1561) XV əsrdə Türkiyənin Bursa şəhərində elmi fəaliyyətlə məşğul olmuşdur. Ədəbiyyata dair olan bu əsərinin xaricində müəllifin "Miftahüs-səadə", "əş-Şəqaiqün-numaniyyə", "Nəvadirül-əxbar" kimi əsərləri də mövcuddur.

Bu əlyazma abidəsinə "Risalatü-taşköpri"əsəsri1293-cü ildə Mustafa Əfəndi əl-Malaxi tərəfindən Məhəmməd Əfəndi əl-Avarinin hüzurunda tam şəkildə köçürülmüşdür.Əsər ərəb dilindədir. Abidənin kağızı sarımtıl və filiqransızdır. Belə hesab etmək olar ki, bu əlyazma kitabının kağızı Şərq istehsalıdır.

Abidənin mətni tək bir sütunda yazılmış və haşiyə ilə mətn arasında haşiyə xətlər qoyulmamışdır. Mətn qara mürəkkəblə "tala nəsxi" xətti ilə, başlıqları isə qırmızı mürəkkəblə, daha böyük ölçüdə "Nəsx" xətti ilə köçürülmüşdür. Eyni zamanda seçdirmələr də qırmızı mürəkkəblə, daha böyük ölçüdə köçürülmüşdür. Abidənin paginasiya ardıcıllığını təmin etmək üçün hər səhifənin sonuna, növbəti səhifədə yazılacaq ilk söz qeyd olunmuşdur.

Titul vərəqində Frontispis yoxdur və mətn birbaşa Bəsmələ ilə başlayır. Abidənin əlavə vərəqlərində müəyyən qeydlər mövcuddur. Cildi sarı rəngli kartondur. Son vərəqindəki kolofonda əlyazmanın katibi haqqında məlumatlar yer alır. Abidənin həcmi: 21 vərəq, ölçüsü 18x22 sm; mətn ölçüsü: 14x17 sm; sətir sayı 9-13.

## Nəticə

Beləliklə, aydın olur ki, XIX əsrin sonlarında Azərbaycanın şimal-qərb bölgəsində dini və dünyəvi təlim-tədris fəaliyyətləri yüksək səviyyədə olmuşdur. Xüsusilə, Qax rayonunun Aşağı Malax kəndindən olan Mustafa Əfəndi əl-Malaxi bölgədəki bir çox mədrəsədə təhsil almış və öz bölgəsində həm müəllim, həm nəqşibəndi şeyxi, həm də ictimai xadim kimi fəaliyyət göstərmişdir. Digər tərəfdən onun fəaliyyət göstərdiyi məscid və mədrəsə sovet hakimiyyəti dövründə dağıdılmış və sadəcə olaraq məscidə məxsus iki daş kitabə qalmışdır ki, o kitabələrdə məscidin və kəndin tarixinə işıq tutan müəyyən məlumatlar vardır. əl-Malaxinin qəbirüstü kitabəsindən də onun kimliyinə və yaradıcılığına dair ümumi məlumatlar əldə etmək olur. əl-Malaxininböyük bir kitabxanası olmuş, lakin repressiya dövründə bir qismi yox edildiyi üçün onlardan yalnız 90-a yaxın İslam elmləri, ədəbiyyat, fəlsəfə, tarix, tibb və coğrafiyaya dair kitab qalmışdır. Həmin kitablar əl-Malaxinin nəslinin nümayəndələrindən birinin evində mühafizə edilir.Əksəriyyəti ərəb dilində olan bu kitabların bir qismi əlyazma, bir qismi daş basma və bir qismi də mətbəə nəşridir. Eyni zamanda ona məxsus kitabxanadakı əlyazmalardan məlum olur ki, o, həm də xəttatlıq və katiblik fəaliyyəti ilə məşğul olmuşdur. Belə ki, onun öz əl yazısı ilə yazılmış 9 ədəd əlyazma kitab həmin kitabxanada mühafizə edilir.

Eyni zamanda əl-Malaxinin bəzi kitablara yazdığı qeydlərdən həmin dövrdə həcc səfərinin necə baş tutduğu və bu bölgə ilə Osmanlı dövlətinin arasındakı ictimai əlaqələrin necə olduğunu da müəyyən etmək olur. Həmçinin bu qeydlərdən məlum olur ki, XIX əsrdə Azərbaycanın şimal-qərb bölgəsindən İstanbula təhsil almaq üçün gedən və orada qalıb tədris fəaliyyəti ilə məşğul olan şəxslər olmuşdur. Sonda qeyd edək ki, günümüzdə Qax rayonunun Aşağı Malax kəndində yerləşən əl-Malaxiyə aid qəbir tarixi abidə kimi qorunur və insanlar tərəfindən müqəddəs ziyarətgah kimi qəbul olunur.

### İstifadə edilmiş ədəbiyyat

EROL, İ., *Azerbaycanda Nakşibendiliğin Halidi-Mahmudi Kolu,* fəlsəfə doktorluğu dissertasiyası, Rize 2019.

SULTANOV, Ə., "Qurani-Kərim və Məalı", İpəkyolu Nəşriyyatı, Bakı 2021.

QƏHRƏMANOV, C., *Azərbaycan əlyazma kitabı tarixindən / "Əlyazmalar xəzinəsində VIII cild"*, Elm, Bakı 1987.

MAHMUDOV, Y., *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası*, C.1., Lider, Bakı 2004.

MƏMMƏDBAĞIROĞLU, Ə., *XVII Əsr Azərbaycan Əlyazma Kitabı*, Elm və Təhsil, Bakı 2018.

MİRZƏYEVA, E., "Orta əsr Azərbaycan şəhərlərinin mənəvi həyatına dair", *Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi*, S.20, Bakı 2013.

NEMƏT, M., *Azərbaycanda pirlər*, Elm və təhsil, Bakı 2010.

NEYMAT, M., Korpus epigraficheskikh pamyatnikov Azerbaydzhana (Tom II: Arabo–perso–tyurkoyazychnyye nadpisi Shcheki–Zakatal'skoy zony), KHKHI–YNE, Baku 2001.

NİYAZOV, Ə., *XIX Əsr Azərbaycanın Şimal-Qərbində (Qanıx-Həftəran Vadisi) Dini Həyat, Elm və Mədrəsələr*, Nurlar, Bakı 2016.

YAQUB, P., *Ziyarət yollarında I hissə*, Zərdabi, Bakı 2011.

## Ekler:



*Şəkil-1: əl-Malaxinin türbəsinin giriş qapısı*



*Şəkil-2: əl-Malaxinin qəbrinin yanında, parça bağlanan Yemişan ağacı*



*Şəkil-3: əl-Malaxinin hazırki qəbirüstü kitabəsi*



*Şəkil-4: Mustafa Əfəndi əl-Malaxinin əvvəlki qəbirüstü kitabəsi*



*Şəkil-5: əl-Malaxinin öz əl yazısı ilə ərəb dilində yazdığı həcc səfəri xatirəsi*



*Şəkil-6: Kitablardakı möhür*




*Şəkil-7: Məscidin kitabəsi*



*Şəkil-8: Məscidin kitabəsi*



*Şəkil-9: Azərbaycandakı Nəqşibəndiyyə-Xalidiyyə-Mahmudiyyəmürşidlərini göstərən Silsilənamə*